# Arzuma çatdım

El arasında gözəl bir deyim var:- «Arzular tükənməz olur. İnsan arzularla yaşayır. Və nəhayət, arzular insanı mənzilə çatdırır.

Mənim də orta məktəb illərindən ürək arzularım olub. Ən ümdə arzum isə jurnalist olmaq idi. Elə bu arzu ilə 2010-cu ildə Bum qəsəbə tam orta məktəbini bitirib Bakı Qızlar Universitetinin jurnalistika fakültəsinə qəbul olundum. Mənalı və hər şeydən qiymətli tələbəlik həyatı. Bu dörd il elə bil bir göz qırpımında ötüşdü. Artıq arzuma çatmış və həyata vəsiqə almışam. Ötən illərə nəzər salanda məktəb illərim, sevimli müəllimlərim gözlərim önündən gəlib keçir. İlk sinif müəllimim Ulduzə Soltanovanın zəhmətini axı unutmaq olarmı? Orta məktəbdə Hürü İbrahimova, Tofiq Qaragözov, Kifayət və Xuraman Rəşidovalar, Universitetdə isə Səyavüş Hüseynli, İlham Məmmədli, Qəmbər Ağayev kimi sevimli müəllimlərim olub. Artıq sərbəst həyatdayam. Çalışacağam ki, gözəl və dəyərli, oxunaqalı yazılarımla oxucuların qəlbinə yol tapım, layiqli bir Azərbaycan ziyalısı olum.

**Aysel SÜLEYMANOVA,**
**Bum qəsəbəsi.**

**REDAKSİYADAN:** ***Aşağıda Aysel Süleymanovanın T. Yaqubov adına Bum qəsəbə tam orta məktəbində keçirilən son zəng tədbiri haqqında məqaləsi dərc edilir.***

# Rayon məktəblərində son zəng tədbirləri

## Bum qəsəbə tam orta məktəbində

Bum qəsəbə T. Yaqubov adına tam orta məktəbdə keçirilən «Son zəng» bayramı iştirakçıların qəlbində silinməz bir iz buraxdı. Budur, qəsəbənin müxtəlif məhəllələrindən məktəbə tərəf axışan şagirdlərin, valideynlərin üzlərindən sevinc və fərəh yağır. Az keçmir ki, məktəbin qarşısında toplantı öz işinə başlayır. Tədbiri məktəbin təşkilatçı müavini Kifayət Rəşidova açıq elan edir. Himnin sədaları altında Azərbaycanın bayrağı meydana gətirilir.

Sonra söz məktəbin direktoru Məlahət Dadaşovaya verilir. O, əvvəlcə on birincilər təbrik edir və 2014-2015-ci dərs ilinin uğurlarından, buraxılan nöqsanlardan söhbət açır. Təbrik üçün söz IX «a» sinfinin şagirdi Kəmalə Alıcanovaya verilir.

Toplantıda sinif rəhbərlərindən Ramil Məmmədov, Qəzənfər Adıgözəlov, Əlövsət Ələmmədov, on birincilərin ibtidai sinif müəllimləri olmuş Zəminə Əzəmmədova və Zümrüd Ağasıyeva çıxış edərək məzunları təbrik edir və müstəqil həyatda onlara uğurlar arzulayırlar. Maraqlı keçən tədbirdə 1-ci sinif şagirdləri səhnəciklər göstərir, şeir və mahqnılar oxuyur, rəqslər edirlər. İştirakçılar «Tələbə» və «Məktəb illəri» mahnılarına qulaq asır, on birincilərin ürək sözlərini eşidirlər. Beşinci sinif şagirdləri Xumar Şəfiyevanın və Qənirə Rəşidovanın söylədikləri şeirlər də iştirakçıların marağına səbəb olmuşdur. «Son zəng» bayramında RTŞ-nin nümayəndəsi Nüsrət Nuriyev çıxış edərək məzunlara uğurlar arzulamışdır. Tədbirin sonunda birincilər və on birincilər öz hədiyyələrini bir-birinə təqdim etmişlər. Son zəngi çalmaq üçün məzun Murad Rəşidov və birinci sinif şagirdi Rəbiyyə Şirinova meydana daxil olmuşdur. Maraqlı keçən toplantı son zəngin sədaları altında sona yetmişdir. Əlbəttə, bu sədalar on birincilərin xatirəsində əbədi və silinməz bir iz buraxmışdır.

## Şəhər 3 saylı tam orta məktəbdə

Səhər saat 8.30-dan şagirdlər həvəslə məktəbə toplaşmağa başladılar. Tədbir üçün nəzərdə tutulmuş meydança bayram ab-havasına bürünmüşdü. Al-əlvan bayraqlar, rəngarəng şarlarla bəzənmiş hər il son zəngin ənənəvi olaraq keçirildiyi meydança milli musiqi sədaları altında tam bir bayram əhval-ruhiyyəsini xatırladırdı.

Nəhayət, saat 09.30-da aparıcıların təqdimatı ilə tədbir açıq elan olundu. Qəlbləri riqqətə gətirən həzin musiqi sədaları altında onbirincilər meydançaya daxil oldular. Meydançada ənənəvi dövrə vurduqdan sonra yerlərinə keçdilər. Məktəbin şagird və müəllim kollektivi bu günə çoxdan hazırlaşmışdı. İbtidai sinif şagirdləri bu gün üçün xüsusi tikilmiş kostyumlarda göz oxşayırdılar. Növbə ilə məktəbin şagirdləri və onbirincilər maraqlı çıxışlar nümayiş etdirdilər. Yadda qalan rəqslər hər kəsi valeh etmişdi. Sinif rəhbərlərinin, məktəbin direktorunun xeyir-duası, təhsildə və digər sahələrdə fərqlənən şagirdlərin təltifi ilə daha da rənglənən tədbirin sonuna doğru onbirincilərin möhtəşəm rəqsi əsl canlanma yaratdı. Məktəbin direktoru Ədilə Əliyeva çıxış edərək şagirdlərə uğurlar arzuladı, gələcək müstəqil həyatlarında nailiyyətlər dilədi. Təhsildə və müxtəlif ictimai tədbirdədə fərqlənən şagirdlər diplomlarla təltif olundular.

Məktəbin ənənəsinə sadiq qalaraq təhsil ocağımızın ənənəvi bilik estafeti yeni «sahiblərinə»—birincilərə təhvil verildi. Estafeti onbirinci sinif şagirdi Ayşən Səfərova onuncu sinif şagirdi Məlahət Nəzirliyə təqdim etdi. Daha sonra birincilər gül-cicəklə sonunculara yeni həyatda uğurlar arzuladılar. Onbirincilər isə xatirə hədiyyələrini onlara təqdim etdtlər.

Kiçik Yelmarın caldığı son zəngin sədaları altında tədbir sona çatdı.

**Elza KƏRİMOVA,**
**məktəbin müəllimi.**

## Daşca kənd tam orta məktəbində

Daşca kənd tam orta məktəbində tədbir başlanarkən əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Məktəbin direktoru Abdulla Abdullayev toplantını açdı. O, çıxışında dərs ilini uğurla başa vuran müəllim və şagird kollektivini təbrik edərək, tədris ili ərzində əldə edilən uğurlardan danışdı.

Keçən il məktəbi bitirən 13 nəfər məzundan 8-i respublikamızın ali məktəblərinə qəbul olunaraq, təhsillərini davam etdirirlər. Belə göstəricilər müəllim və şagird kollektivini də sevindirməyə bilməzdi. Uğurlar şagirdlərimizi biliklərin əsaslarına daha dərindən yiyələnməyə ruhlandırır.

Məktəbin direktor müavini Ruhəngiz Həbibova məzunları qarşıdan gələn imtahanlara daha yaxşı hazırlaşmağı tövsiyə etdi. Çıxış üçün məktəbin müəllimlərindən Simurə Musayevaya, Teyfur Əsədov və Namiq Şuşalıya söz verildi. Onlar çıxışlarında dərs ilinin yekunları ilə əlaqədar olaraq qazanılan uğurlardan söhbət açdılar və gələcək təhsil illərində və yeni həyat yollarında şagirdlərə uğurlar arzuladılar.

Aparıcılar onbirincilərə söz verdilər. Onlar bir-birinin ardınca çıxış edərək on bir il biliklərin əsasını öyrədən, onlara tərbiyə verən əziz və hörmətli müəllimlərinə minnətdarlıq etdilər.

Kənd inzibati ərazi nümayəndəsi Azər İsmayılov çıxış edərək məktəbin müəllim və şagird kollektivlərini tədris ilinin uğurlu yekunları ilə bağlı təbrik etdi, qazanılmış müvəffəqiyyətləri daha da möhkəmləndirməyi arzuladı.

Birincilərdən son zəngi Səmral Mahmudova vurdu və məzunları təbrik etdi.

**Sevin BABAZADƏ,**
**Daşca kənd tam orta məktəbin X sinif şagirdi.**


## Oxucuların nəzərinə!

**«Qəbələ» qəzetinə**

**2015-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə qəzetin «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və ya redaksiyanın özündə kassaya nəqd ödəmə yolu ilə aparılır.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

*Ünvan: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.*

*Telefonlar: (024)20 5-19-14, (024)20 5-15-56, mob. (050) 328-11-42.*


## ELAN

Dövlət Texniki İnventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı idarəsi tərəfindən Qəbələ şəhəri İ.Qutqaşınlı küçəsi ev 30 mənzil 5-də yaşayan Məmmədov Elman Yusif oğlunun adına 27 dekabr 1998-ci il tarixdə restr № 1 A/61, inventar işi №-si 1585 olan qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov yaxın dostu Milli Televiziya və Radio Şurası sədrinin müavini, professor **Qafar Cəbiyevə,** atası

**CƏFƏR CƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qəbələ rayonu üzrə maliyyə idrəsinin kollektivi **Samit Ağayeva,** əzizləri

**TAHİR MÜƏLLİMİN və ŞƏFİQƏ XANIMIN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Qəbələ Rayon Uşaq Xəstəxanasının kollektivi iş yoldaşları **Anjella xanıma,** həyat yoldaşı

**XALƏDDİN ƏSƏDOVUN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.



ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospektii, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru



Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.
Oxucu məktubları geri qaytarılmır.